*Tanış olun, həmyerlimizdir*

# İşgüzar pedaqoq, bacarıqlı təşkilatçı

Ötən əsrin 90-cı illərində ölkəmizdə bazar iqtisadiyyatına keçid bir çoxlarında, xüsusən, gənc oğlanlarda biznesə, ticarətə meylləri gücləndirsə də orta məktəbi 1991-ci ildə bitirmiş gənc Dönməz müəllim olmaq arzusundan geri çəkilmədi. Bu arzu onu Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna gətirib çıxardı. 1995-ci ildə ali təhsilini müvəffəqiyyətlə başa vuran Dönməz Mərdanov ilk müəllimlik fəaliyyətinə Mingəçevir şəhər 1 saylı tam orta məktəbində başladı. Rayonumuzun Seyidqışlaq kəndində doğulub boya-başa çatmış gənc Dönməz üçün Mingəçevir şəhəri tezliklə doğma ocağa çevrildi.



Dönməz Mərdanov yaxşı idman müəllimi olmaqla yanaşı həm də bacarıqlı şahmatçı idi. Bunu nəzərə alan Mingəçevir şəhər rəhbərliyi 2007-ci ildə Dönməz Mərdanovu Mingəçevir Şəhər Şahmat Məktəbinə direktor vəzifəsinə irəli çəkdi. O, bütün qüvvəsini bacarıqlı şahmatçıların yetişməsinə yönəltdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı «2009—2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı» respublikada şahmatın inkişafına böyük təkan vermişdir.

Dönməz Mərdanovun rəhbərlik etdiyi Mingəçevir Şahmat Məktəbinin kollektivi də Dövlət Proqramında qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsi üçün bütün səylərini səfərbər edir. Bu məktəbdə 20 nəfərdən artıq məşqçi 400 nəfərə yaxın gənc şahmatçının yetişdirilməsi ilə məşğuldur. Nəticələr ürəkaçandır. Məktəbin yetirmələri ölkə, Avropa və dünya üzrə keçirilən şahmat yarışlarında müvəffəqiyyətlə çıxış edirlər.

2014-cü ildə məktəblilər arasında Yunanıstanda keçirilən şahmat üzrə Avropa birinciliyində məktəbin yetirməsi Aysel Səlimova Avropa çempionu olmuş, Zeynəb İsmayılzadə isə şahmatın blits növü üzrə həmyaşıdları arasında keçirilən beynəlxalq yarışlarda birinci yerə yüksəlmişdir. Bu uğurlarda Mingəçevir Şahmat Məktəbinin direktoru Dönməz Mərdanovun böyük əməyi var.

Dönməz müəllim həm də qayğıkeş ailə başçısıdır. Üç övladı var. Onları da özü kimi əməksevər böyütmək ən böyük arzusudur.

**Çələbi DÖNMƏZ.**

# Əlil arabası

*Hekayə*

Oturduğum əlil arabasında yanımdan keçənlərin kinayəli, yazıq baxışları, hətta bəzilərinin məni görəndə üzünü yana çevirməsi və bir yük kimi çiyinlərimdə daşıdığım əlil adı, dörd bir tərəfdən məni sıxıb yumağa döndərən həyat...

Nə qədər çətin idi mənimçün, nə qədər çətinləşdirmişdilər. Yaşadığım həyatın acısı gözlərimdən çıxıb qəlbimə hopurdu.

Lap uşaqlıqdan məhkum idim bu əlil arabasına. Anam hərdən məni qapımızın ağzına çıxarardı ki, oynayan uşaqlara baxım, darıxmayım. Ən dəhşətli anlarım elə bundan sonra başlayardı. Qaytara bilməyəcəyimi bilə-bilə üstümə top atan, papağımı başımdan alıb qaçan, əlil arabama təpik vurub mənə lağ edən uşaqlar... Onlar mənə mənim varkən yox olduğumu hiss elətdirməyə var gücləri ilə səy göstərən öz məhəllə uşaqlarımız idilər, onlar mənim böyüməyə çalışdığım cəmiyyətin "gələcəyi" idilər.

Göz yaşları içində evə qayıtdığım, qapının arxasından gizli baxdığım günlərdən illər keçib artıq. Dəyişən tək mənəm. Saçları ağarmış, çuxura düşmüş gözlərindən kədər boylanan mən. Amma yox, o kədərin içində haqlarımın üzərindən tapdalayıb keçən ucuzlaşmış insanlara bir sonsuz gülüş boylanır. Mən onların halına acıyıram. Onlardan qəlbimlə, ruhumla nə qədər yüksəkdə olduğumu bildiyimçün xoşbəxtəm.

**Rəna HİDAYƏTQIZI,**
**şəhər 5 saylı tam orta məktəbin müəllimi.**

# TƏQVİMDƏN SƏHİFƏLƏR

**20 iyun:** Xalq artisti, bəstəkar, SSRİ Dövlət mükafatı laureatı **Cahangir Cahangirov** (1921—1992) anadan olub. Yaradıcılığının əsas hissəsini xor əsərləri təşkil edir. Vokal-simfonik poema, kantatalar, oratoriyalar, kinofilimlərə musiqi yazıb, konservatoriyada dərs deyib.

**22 iyun:** Məşhur opera müğənnisi, Azərbaycan professional vokal məktəbinin banisi, SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı **Bülbül (Murtuza Məşədi Rza oğlu Məmmədov)** (1897—1961) Şuşada anadan olmuşdur. Kiçik yaşlarında məlahətli zənguləri olduğuna görə xalq ona «bülbül» adı verib. Teatr səhnəsində ilk çıxışı 1916-cı ildə Gəncədə M. C. Əmirovun «Seyfəlmülk» operası ilə bağlıdır. Opera və Balet Teatrının solisti olub, müxtəlif partiyaları ifa edib, vokal texnikasını təkmilləşdirmək üçün Milanda iki dəfə dərs alıb. Konservatoriyada dərs deyib. Məlahətli səsi ilə bərabər aktyorluq istedadı da yüksək idi. Xalq mahnılarını, Qərbi Avropa və rus bəstəkarlarının əsərlərini də məharətlə ifa etmişdir.

**23 iyun:** şair, tərcüməçi, Azərbaycanın Əməkdar Mədəniyyət işçisi, Azərbaycan xalq şairi **Nigar Rəfibəyli** (1913—1981) anadan olub.

Rus şairi **Anna Axmatova (Qorenko)** (1989-1966) dünyaya gəlib. Yaradıcılıq yolu çətin və ziddiyətli olmuş, tənqid və təqiblərə məruz qalmışdır. Yaradıcılığının zirvəsi «Qəhrəmansız poema» lirik-epik əsəri sayılır.

**25 iyun.** Məşhur ensiklopediyaçı alim, astronom, riyaziyyatçı, filosof, şair **Nəsrəddin Tusi** (1201—1274) Bağdadda vəfat edib. Onun müəllimləri əvvəlcə atası, sonra Bəhmənyar və ibn Sina olublar. Marağa Astronomiya Rəsədxanasını yaradıb. Orada yeni astronomik cihazlar qurub, zəngin kitabxanası olan elmi mərkəz yaradıb. Astronomiyanın inkişafında böyük xidməti olub.

Akademik, millət vəkili **Ziyad Səmədzadənin** ad günüdür. 1940-cı ildə anadan olmuşdur.

Xalq artisti **Sona Hacıyeva** (1907—1989) Şəkidə dünyaya gəlib. Akademik Dram Teatrında işləyib, kinofilimlərdə çəkilib.

**26 iyun.** Xalq artisti, rejissor **Əliheydər Ələkbərov** (1915—1974) anadan olub. Milli Dram Teatrının rejissoru, direktoru vəzifələrində işləyib, pedaqoji fəaliyyət göstərib.

**28 iyun.** Xalq artisti **Barat Şəkinskaya** 1914-cü ildə Şuşada anadan olub. Dram Teatrında işləyib. Şekspir əsərlərinin qəhrəmanlarının bədii obrazlarını məharətlə yaradıb.

Polis general-leytenantı **Arif Heydərov** (1926-1978) Ağdaşda anadan olub. Çilingər şagirdi kimi əmək fəaliyyətinə başlamış, ikinci dünya müharibəsində Berlinədək döyüş yolu keçmişdir. Dövlət təhlükəsizliyi orqanlarında işləmiş, Türkiyədə konsul, 1970-ci ildən Azərbaycanın daxili işlər naziri olmuşdur. Xidməti vəzifəsini yerinə yetirərkən faciəli surətdə həlak olmuşdur.

**30 iyun:** görkəmli seleksiyaçı, akademik **Cəlal Əliyev** 1928-ci ildə anadan olmuşdur.


## Oxucuların nəzərinə!

## «Qəbələ» qəzetinə

**2015-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.**

**Qəzet ayda dörd dəfə çıxır.**

**Yarımillik abunə qiyməti 15 manatdır.**

Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.

Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.

Ünvan: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.

Telefonlar: (024)20 5-19-14, (024)20 5-15-56, mob. (050) 328-11-42.


## ALLAH RƏHMƏT ELƏSİN

F. Həmidov adına Bunud kənd tam orta məktəbin kollektivi **Haqverdi İsayevə və ailə üzvlərinə,** anası **QƏİDƏ İSAYEVANIN** vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon İncənət Məktəbinin kollektivi məktəbin müəlliməsi **Sabirə Ağayevaya,** xalası **FƏRİDƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.


Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi:
A. C. Cəlilov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospektii, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.
Oxucu məktubları geri qaytarılmır.